**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yanında**

**İctimai Şuranın**

# HESABATI

**Yanvar - 2023**

# Mündəricat


**1. ŞURANIN YARADILMASI VƏ TƏRKİBİ** ........ 3

**2. İCLASLAR VƏ SƏFƏRLƏR** ........ 3

İlk iclas ........ 3

İctimai Şura üzvləri Ağdamda ........ 4

İctimai Şura üzvləri Tərtərdə ........ 5

Bərdədə PSTM layihəsi iştirakçıları ilə görüş ........ 5

Maarifləndirici bilbordların quraşdırılması ........ 6

Yerli icmalarla görüş ........ 6

Azərbaycan Televiziyasında mina problemi ilə bağlı müzakirələr ........ 7

**3. BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ KONFRANSLAR** ........ 8

Sülhün Kökləri təşkilatı Azərbaycanda ........ 8

Mətbuat üçün açıq iclas ........ 9

Bakıda keçirilən beynəlxalq konfransda şura üzvlərinin rolu və iştirakı ........ 9

İsarildə Azərbaycanın mina problemi ilə bağlı müzakirələr ........ 10

Cenevrədə Ottava Konvensiyası ilə bağlı tədbir ........ 10

Şura sədrinin ABŞ-da beynəlxalq tədbirdə iştirakı ........ 11

"Washington Outsider Report"-da Azərbaycanın mina problemi ........ 12

Bakıda keçirilən beynəlxalq konfransda şura üzvlərinin rolu və iştirakı ........ 12

Cənubi Qafqazda mina mövzusunda keçirilən konfrans ........ 13

ANAMA rəsmisi və şura sədri ABŞ-da beynəlxalq tədbirdə ........ 13

Şura üzvləri Şuşada keçirilən aksiyada ........ 14

**4. MİNADAN ZƏRƏRÇƏKƏNLƏRLƏ İŞ** ........ 14

Minadan zərərçəkənlərin ailə üzvləri üçün kursların təşkili ........ 14

Şura üzvləri Şuşada keçirilən aksiyada ........ 14

Tərtərdə minadan zərərçəkənlərlə görüş ........ 15

Mina qurbanlarının həyat hekayələrinin hazırlanması ........ 15

Əl Cəzirə Media Şəbəkəsinin mina qurbanları ilə bağlı reportajları ........ 16

Şura sədrinin BMT-nin Nyu York ofisində ........ 16

**5. YEKUN HESABAT GÖRÜŞÜ** ........ 16

## 1. ŞURANIN YARADILMASI VƏ TƏRKİBİ

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətində ictimai iştirakçılığın və nəzarətin təmin edilməsi məqsədilə 21.06.2021-ci il tarixində Agentliyin yanında İctimai Şuraya seçkilər keçirilmiş və 7 nəfərdən ibarət şura heyəti formalaşdırılmışdır. 2021-ci il 30 iyun tarixində isə ANAMA yanında İctimai Şura üzvləri və ANAMA rəhbərliyi ilə ilk iclas keçirilmiş və səsvermə yolu ilə Şuraya sədr Umud Mirzəyev (Beynəlxalq Avrasiya Mətbuat Fondunun Prezidenti), sədr müavini Emil Həsənov ("İnkişafa və İslahatlara Dəstək" İctimai Birliyinin İdarə Heyətinin üzvü) və katib Hafiz Safixanov (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin Sədri) yekdilliklə seçilmişdir. Rey Qasımov (Azərbaycanda Minadan Zərərçəkənlər Assosiasiyasının sədri), Şahin İbrahimov ("Dayaq" Qeyri Hökumət Humanitar Yardım Təşkilatının sədri), Nadir Cəfərov ("Çıraq" Humanitar və İnkişaf İctimai Birliyinin Direktoru) və Məmmədhəsən Həsənov (Mina Qurbanlarının Sosial İqtisadi Problemlərinin Həllinə Kömək İctimai Birliyinin sədri) şuraya üzv seçiliblər.





## 2. İCLASLAR VƏ SƏFƏRLƏR



2021-ci il 30 iyun tarixində **ANAMA yanında İctimai Şuranın ilk iclası** keçirilib. Komissiya sədri Samir Poladov İctimai Şura üzvlərini təbrik edib və gələcək birgə fəaliyyətdə hər birinə uğurlar arzulayıb. Həmçinin, görüşdə ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov tərəfindən İctimai Şuranın üzvlərinə üzvlük vəsiqəsi təqdim edilmişdir. Şuranın üzvləri ilə keçirilən görüşdə gələcək fəaliyyət istiqamətləri, mina təhlükəsinə dair maarifləndirmə sahəsində vətəndaş cəmiyyətinin dəstəyi, beynəlxalq təşkilatların cəlb olunması, maarifləndirmə istiqamətində mətbuat konfranslarının daha geniş miqyasda keçirilməsi, eləcə də minadan zərərçəkənlərə yardım proqramları ilə bağlı müzakirələr aparılmışdır.



2021-ci il 1 sentyabr tarixində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın iclası keçirilib. İclasda üzvlər tərəfindən fəaliyyət planı müzakirə edilib, gələcək işlərlə bağlı istiqamətlər müəyyən olunub. Görüş çərçivəsində İctimai Şuranın rekvizit və atributları haqqında fikir mübadiləsi aparılıb. Önəmli müzakirə mövzularından biri də BMT-nin Mina və partlayıcı sursatların təhlükəsinin aradan qaldırılması məsələləri üzrə Ümumdünya Vəkili Daniel Kreyqə, İctimai Şuranın üzvləri tərəfindən Azərbaycandakı mövcud vəziyyətə dair müraciətlə bağlı olub. Burada əsas məqsəd vətəndaşların həyatını qorumaq, bölgəyə sülh və firavanlıq gətirmək səylərinə töhfə verməkdir.

ANAMA yanında İcitmai Şura üzvləri mütəmadi olaraq görüşlər keçirib və müzakirələr aparıblar. Dekabrın 3-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri Ağdama səfər edərək davam edən minatəmizləmə əməliyyatları ilə yaxından tanış olublar. Səfərdə İctimai Şuranın sədri Umud Mirzəyev, katib Hafiz Səfixanov, üzvlər Rey Kərimoğlu, Şahin İbrahimov və Məmmədhəsən Həsənov iştirak ediblər. Səfər zamanı ANAMA-nın əməliyyat meneceri Ehtiram Cəfərov Ağdam rayonunun işğaldan azad olunan ərazilərində həmin dövrə qədər aparılan minatəmizləmə əməliyyatları haqqında hesabatı şura üzvlərinin diqqətinə çatdırıb. Minaaxtaran heyəti ilə görüşən şura üzvləri onların fikirlərini, problemlərini öyrənib lazımi dəstəyin göstəriləcəyini bildiriblər. Daha sonra onlar Ağdamda ANAMA əməkdaşları üçün tikilən yeni bazanın tikintisi ilə tanış olublar.









2021-ci il dekabrın 4-də Şura üzvlərinə Tərtər rayonunda ANAMA-nın əməliyyat meneceri Şahin Allahverdiyev tərəfindən indiyə qədər təmizlənən ərazilər və aşkarlanan minalarla bağlı hesabat təqdim edib. Suqovuşan və Talış kəndlərində minaaxtaran heyətlə görüşən üzvlər onların fikir və təkliflərini dinləyib lazımi tədbirlərin görüləcəyini bildiriblər. Daha sonra İctimai Şuranın üzvləri Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ilə görüşüb partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə üzrə rayonda görülən işlərlə bağlı müzakirələr aparıblar.










Şura üzvləri 5 dekabr 2021-ci il Bərdə rayonunda Avropa İttifaqının maliyyə dəstəyi, ANAMA-nın və UNICEF Azərbaycanın dəstəyi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun təşkilatçılığı ilə keçirilən "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" (PSTM) layihəsinin iştirakçıları ilə görüşüb, təlimlərin gedişatını izləyiblər. Mina və PHS maarifləndirilməsi üzrə yerli sakinlər tərəfindən səsləndirilirən təkliflər müzakirə mövzuları kimi qeydə alınıb.





2021-ci ilin aprel ayında BAMF-ın təşəbbüsü və koordinasiyası ilə hazırki İctimai Şura üzvlərindən ibarət vətəndaş cəmiyyəti qurumlarının rəhbərləri Ermənistanın mina xəritələrini təqdim etməkdən boyun qaçırması ilə bağlı beynəlxalq petisiya başlatmışdır. Tanınmış ictimai xadimlər, mədəniyyət işçiləri, vətəndaş cəmiyyəti təmsilçiləri, insan hüquq müdafiəçilərin də bu kampaniyaya qoşulması ilə 20 mindən artıq səsin toplanmasına nail olunub.





2021-ci ilin Oktyabr ayı ərzində İctimai Şura üzvləri ANAMA əməkdaşları ilə birlikdə Ağdam, Tərtər, Goranboy, Füzuli, Cəbrayıl rayonlarında mina xəbərdaredici bilbordların quraşdırılmasında iştirak edib, yerli sakinlərlə maarifləndirici söhbətlər aparıblar.






2021-ci il dekabrın 29-da İctimai Şuranın 4 aylıq fəaliyyətinə dair iclas keçirilmiş və gələcək fəaliyyət planı müzakirə olunmuşdur. Onlayn formata baş tutan görüşdə şuranın sədri Umud Mirzəyev tərəfindən növbəti il mina təhlükəsizliyi ilə bağlı beynəlxalq konfransın keçirilməsi təklif olunub. Şura üzvləri beynəlxalq əlaqələrin qurulmasını və bu istiqamətlərdə konfransların keçirilməsini dəstəklədiklərini bildirərək bunu əsas prioritet olaraq müəyyən ediblər. 2021-ci ildə İctimai Şuranın ümumilikdə, 2-i regionda olmaqla 4 iclası keçirilmişdir.

01.09.2022 – 01.11.2022 tarixlərdə ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanov sədri olduğu Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi “İşğaldan azad olunmuş ərazilərdəki minalar və partlamamış hərbi sursatlar problemi barədə beynəlxalq ictimaiyyətin məlumatlanlandırılması məqsədilə tədqiqatın aparılaraq hesabatın hazırlanması” layihəsi çərçivəsində mina təmizləmə əməliyyatlarına çəlb olunmuş ANAMA, Müdafiə Nazirliyinin mina təmizləmə alayı, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin müvafiq bölmələrinin, hər biri beynəlxalq kommersiya subpodratçı ilə birlikdə çalışan dörd milli kommersiya minatəmizləmə şirkətlərinin (Qaya Safety Solutions, Alpha Demining, Safe Point, Azerbaijan Demining Company və milli mina təmizləmə QHT – “Beynəlxalq Avrasiya Mətbuat Fondu”nun rəhbərləri və mina təmizləyənləri ilə görüşlər keçirmiş, onların fikirlərini, problemlərini öyrənib lazımi dəstəyin göstərilməsi üçün lazımi şəxslərə müraciət ediləcəyini bildirmişdir. Füzuli, Tərtər, Goranboy və Ağcabədi rayonlarında yaşayan mina qurbanları ilə də görüşlər keçirilmişdir.

 

24 oktyabr 2022-ci il tarixində ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanovun sədri olduğu Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən "İşğaldan azad olunmuş ərazilərdəki minalar və partlamamış hərbi sursatlar problemi barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması məqsədilə tədqiqatın aparılaraq hesabatın hazırlanması" layihəsinin yekunlarına dair mətbuat konfransı təşkil olunub.

Noyabrın 1-də ANAMA-nın baş ofisində son zamanlar baş verən mina hadisələri ilə bağlı ictimaiyyətin məlumatlandırılması və birgə fəaliyyətin inkişafı məqsədilə Şura üzvlərinin iştirakı görüş keçirilmişdir.  İctimai Şura üzvləri son günlər ölkəmizdə baş verən mina hadisələri ilə bağlı beynəlxalq təşkilatlara bəyanat ünvanlayıblar.

ANAMA yanında İctimai Şuranın üzvü Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin sədri Hafiz Səfixanov 2022-ci il ərzində minaların yaratdığı  problemlərə və bununla mübarizə proqramlarına dair ölkədə fəaliyyət göstərən KİV-də 150-dən çox müsahibə, material və press relizlə çıxış etmişdir.






Şuranın sədr müavini Emil Həsənov AzTV telekanalında yayımlanan "Əsas Məsələ" proqramında ölkəmizdə aparılan minatəmizləmə əməliyyatlarına beynəlxalq ictimaiyyətin yanaşması və mina probleminin regionda sülhün bərqərar olmasında rolu mövzusunda çıxışlar edib.



## 3. BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ KONFRANSLAR



2021-ci il iyul ayının 9-da İctimai Şuranın sədri Umud Mirzəyevin və sədr müavini Emil Həsənovun, ABŞ-ın Azərbaycandakı səfirinin müavini səlahiyyətlərini icra edən, Beynəlxaq İnkişaf Agentliyinin Azərbaycan missiyasının rəhbəri cənab Caydev Sinqx, səfirliyin müşaviri xanım Laura Daniels və səfirliyin siyasi məsələlər üzrə mütəxəssisi Kənan Mustafayevin iştirakı ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) ofisində görüş keçiriblər. Görüşdə Azərbaycanda aparılan minatəmizləmə əməliyyatları haqqında səfirlik əməkdaşlarına məlumat verilib. Həmçinin, yeni yaranan ictimai şuranın fəaliyyət planı da qonaqların diqqətinə çatdırılıb.

ANAMA yanında İctimai Şuranın katibi, Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyininin sədri Hafiz Səfixanov 2021-ci il dekabrın 7-də Kanada parlamentinin üzvləri ilə Zoom görüşü keçirib. Görüşdə Hafiz Səfixanov tərəfindən Azərbaycanda aparılan minatəmizləmə əməliyyatları haqqında məlumat verilib və bu fəaliyyətdə beynəlxalq donorların cəlb olunmasının əhəmiyyəti vurğulanıb. Sonda şura katibi parlament üzvlərini ölkəmizə dəvət edib və mövcud vəziyyətlə yerində tanış olmalarını təklif edib.

2022-ci il 1-4 mart tarixlərində Mina Aksiyası üzrə dünyaca məşhur Sülhün Kökləri təşkilatının rəhbəri xanım Heidi Kuhn şura sədri Umud Mirzəyevin dəvəti və ANAMA-nın dəstəyilə Azərbaycanda səfərdə oldu. Səfər zamanı İctimai Şura üzvləri ilə Heidi Kuhn arasında Azərbaycan ərzilərinin minalardan təmizlənməsi və birgə beynəlxalq kampaniyaların başladılması ilə bağlı müzakirələr aparıldı. Qarabağda aparılan minatəmizləmə əməliyyatları ilə yaxından tanış olan Heidi Kuhn ANAMA-nın idarə heyətinin sədri Vüqar Süleymanov və İctimai Şura sədri Umud Mirzəyevin iştirakı ilə ağacəkmə kampaniyasında da iştirak edib. Martın 4-də isə Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisində iki təşkilat arasında əməkdaşlıqları rəsmiləşdirən anlaşma memorandumu imzalandı. Tədbirdə İctimai Şura üzvləri, ANAMA-nın idarə heyətinin sədr müavini Samir Poladov və media nümayəndələri iştirak ediblər.









İctimai Şura üzvləri 2022-ci ilin mart ayı Füzuli və Ağdam rayonları ərazisində dağıdılmış və minalanmış mədəni obyektlərə (Ağdam Cümə məscidi, Qiyaslı məscidi, Şıxbaba türbəsi, Şahbulaq qalası, Füzuli rayonu Qorqan piri, Merdinli məscidi, Qarğabazar karvansarayı) ərazisində aparılan minatəmizləmə işləri ilə tanış olmaq üçün regiona səfər edib, minaaxtaranlarla görüşüblər.

Martın 25-də Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən həyata keçirlən "Minasız Azərbaycan, Təhlükəsiz Qarabağ Konfransına hazırlıq" layihəsi çərçivəsində İctimai Şura üzvləri bir araya toplaşdılar. Görüşdə cari statistik məlumatlar dinlənildikdən sonra azərbaycan və ingilis dillərində çap olunan broşuralar təqdim olunub. Konfransa hazırlıq çərçivəsində şura tərəfindən görülən işlər – region səfərləri, mina qurbanları ilə görüşlərin keçirilməsi, xarici qonaqların dəvət edilməsi, hesabatların hazırlanması və s. ictimaiyyətin diqqətinə çatdırılıb.






Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə aprelin 1-də Bakıda "Humanitar minatəmizləmə fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib. İctimai Şura üzvlərinin təşəbbüsü əsasında keçirilən konfransın məqsədi insanların həyatı və normal yaşayış şəraiti üçün mina təhlükələrinin aradan qaldırılmasında humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyətini müzakirə etmək və beynəlxalq ictimaiyyətin diqqətini bu sahəyə yönəltmək olmuşdur. İctimai Şura dünyanın müxtəlif ölkələrindən tədbir iştirakçılarının dəvət edilməsində birbaşa olaraq iştirak etmişdir. İctimai Şuranın sədri Umud Mirzəyev, sədr müavini Emil Həsənov və katib Hafiz Səfixanov müxtəlif panellərdə çıxış edərək ölkədəki mina problemini və şura tərəfindən bu istiqamətdə görülən işləri konfrans iştirakçılarının diqqətinə çatdırmışlar.

 

14 iyul 2022-ci il tarixində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə üzrə İşçi Qrupun növbəti iclası keçirilib. İclasda iştirak edən şura sədri Umud Mirzəyev İctimai Şuranın bir illik hesabatını təqdim edib və gələcək fəaliyyət planını diqqətə çatdırıb.

İyulun 28-də Yerusəlimdə Dona Gracia Diplomatiya Mərkəzi İsrailin minalardan təmizləmə şirkəti olan Open Minded Solutions Ltd. ilə birlikdə dəyirmi masa keçirib. ANAMA yanında ictimai şuranın sədr müavini Emil Həsənov minaların Qarabağda sülhə mane olmasından danışıb. O vurğulayıb ki, son araşdırmaya görə, Azərbaycanda 8700 kvadrat kilometr ərazi mina və kasset bombalarının təsirinə məruz qalıb. Ermənistan tərəfinin təhvil verdiyi bu ərazilərin mina xəritələrinin yalnız 25%-i düzgündür. Ermənistan bu günə qədər bütün mina xəritələrini verməkdən imtina edib və bu, sülh quruculuğuna mane olur.

 

Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin sədri və gənclərlə iş deparamentinin rəhbəri 30.08.2022 – 02.09.2022 tarixlərdə keçirilən "Kasetli silahlara dair" BMT Konvensiyasına Üzv Dövlətlərin 10-cu illik Konfransında və 21.11.2022 – 25.11.2022 tarixlərdə "Piyadalar əleyhinə minaların istifadəsi, ehtiyatının toplanması, istehsalı, ötürülməsinin qadağan olunması və onların məhv edilməsi haqqında" BMT Konvensiyasına (Ottava Konvensiyası) Üzv Dövlətlərin 20-ci illik Konfransında iştirak etmişlər. Bu tədbirlər çərçivəsində Ottava Konvensiyasına İcrasına Dəstək Bölməsinin direktoru, Türkiyə, Böyük Britaniya, Kanada, ABŞ, Almaniya, Fransa, Niderland, Belçika, İsveç, İsveçrə hökümətlərinin və beynəlxalq təşkilatların rəsmi nümayəndələri ilə görüşlər keçirilmişdir, onlara ölkədəki mina problemlərinə dair hazırlanmış hesabat təqdim olunmuş və ətraflı məlumat verilmişdir. Almaniya nümayəndə heyətinin başçısı, Nobel Sülh Mükafatı laureatı "Piyadalar Əleyhinə Minaların Qadağan Olunması Uğrunda Beynəlxalq Kampaniya"nın direktoru, HRW Silahlara Nəzarət Departamentinin rəhbəri və "Landmine Monitor Report" layihəsinin menegeri ilə Azərbaycanın rəsmi nümayəndə heyətinin (ANAMA, XİN və Cenevrədəki nümayəndəlik) görüşünü təşkil etmiş və bu görüşlərdə iştirak etmişlər.






Şura sədri Umud Mirzəyev minatəmizləmə sahəsində dünyanın aparıcı təşkilatlarından olan “Sülhün Kökləri” təşkilatının ABŞ-da keçirilən 25 illik yubiley tədbirində iştirak edib. Umud Mirzəyevin çıxışından öncə Heidi Kuhnun Azərbaycana səfərini əks etdirən video çarx nümayiş olunub. Tədbir iştirakçıları tərəfindən maraqla qarşılanan videodan sonra şura sədri onun üçün ayrılan çıxış müddətində Azərbaycanın qlobal mina problemi haqqında daha ətraflı məlumat verib. Daha sonra Heidi Kuhnun mina aksiyası fəaliyyətinə həsr olunmuş və BAMF tərəfindən Azərbaycan dilində nəşr olunan “Canlanan Torpaq” (Breaking Ground) adlı kitabının təqdimatı baş tutub. Şura sədri Umud Mirzəyev, həmçinin, simvolik ağacəkmə kampaniyasında da iştirak edib.





İctimai Şuranın sədr müavini Emil Həsənov “Washington Outsider Report” tolk şousunun qonağı olub. O regiondakı mövcud vəziyyət və Azərbaycanın mina problemi ilə bağlı aparıcının suallarını cavablandırıb. Bir saatdan artıq davam edən müsahibəni on minlərlə tamaşaçı izləyib.




17-18 noyabr 2022-ci il tarixlərində ANAMA-nın təşkilatçılığı ilə “Mina təhlükəsi ilə mübarizə: çağırışlar və imkanlar” mövzusunda beynəlxalq tədbir keçirilib. Dünyanın 28 ölkəsindən minatəmizləmə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların, əməliyyat və istehsalçı şirkətlərin 60-dan çox nümayəndəsinin iştirak etdiyi tədbirin təşkilində ANAMA yanında İctimai Şura üzvləri yaxından iştirak etməklə yanaşı, panel müzakirələrində ölkəmizin mina problemi ilə bağlı çıxışlar ediblər. İctimai Şuranın sədri Umud Mirzəyev və sədr müavini Emil Həsənov minalara qarşı fəaliyyətə həsr olunmuş müxtəlif panellərdə çıxış edərək ölkədəki mina problemini konfrans iştirakçılarının diqqətinə çatdırmışlar.








30 noyabr 2022-ci il tarixində Bakıda "Cənubi Qafqazda mina və PHS qurbanları ilə həmrəylik günü" adlı konfrans keçirilmişdir. Konfrans LINKS Europe və Qafqaz Siyasətinin Təhlili Mərkəzi tərəfindən Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin iştirakı ilə "Minalardan azad Cənubi Qafqaz 2022" kampaniyası çərçivəsində təşkil olunmuşdur və rəsmi şəxslər, parlament üzvləri, səfirlər, müxtəlif səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri, mina qurbanları, QHT-lər və media nümayəndələri iştirak etmişdir. Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin sədri tədbir zamanı ölkədəki mina qurbanları barədə hazırladığı xüsusi təqdimatla çıxış etmişdir.




2 dekabr 2022-ci il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən ADA Universitetində mina qurbanlarının problemlərinə həsr olunmuş Dəyirmi Masa təşkil olunmuşdur. Dəyirmi Masada nazirliklərin, beynəlxalq təşkilatların, QHT-lərin nümayəndələri iştirak etmişdir. ANAMA yanında İctimai Şura üzvləri Rey Qasımov və Hafiz Səfixanov ölkədəki mina qurbanlarının vəziyyəti barədə çıxışlar etmişlər.

ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanov mütəmadi olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyində və digər rəsmi şəxslərlə keçirdiyi görüşlərdə 2012-2022-ci illər ərzində Azərbaycan Respublikasının Müdafiə Nazırliyinin Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən Azərbaycan Ordusunun qeydiyyatında olan 64686 ədəd piyada əleyhinə mina və 67633 tank əleyhinə minanın utilizasiya edilməsi barədə əldə etdiyi məlumat ölkə ictimaiyyətinin və beynəlxalq donor ictimaiyyətinin diqqətinə çatdırıldı.

2022-ci il 2-3 dekabr tarixlərində Kaliforniyada - Napa Vadisində minasız dünya çağırışı ilə ənənəvi "Zənglər festivalı" keçirilib. Tədbirdə ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev və ANAMA-nın Beynəlxalq əlaqələr, maarifləndirmə və mətbuatla iş idarəsinin rəisi Ramil Əzizov iştirak ediblər. Ölkəmizdə davam etdirilən intensiv minatəmizləmə əməliyyatlarında vətəndaş cəmiyyətinin rolu haqqında çıxış edən Umud Mirzəyev sonda beynəlxalq donorlara çağırış edib. Tədbirdə, Heidi Kuhnün Azərbaycan səfəri ilə bağlı nümayiş etdirilən videoçarx da böyük maraqla qarşılanıb.




ANAMA yanında İctimai Şura üzvləri sədr Umud Mirzəyevin rəhbərliyi ilə minadan zərərçəkmiş şəxslərlə birlikdə 2022-ci il dekabrın 12-də Rusiya sülhməramlılarının yerləşdiyi Şuşa-Xankəndi yolunun bir hissəsində ekoloji-aktivistlər, və QHT-lər tərəfindən başladılan aksiyada fəal iştirak ediblər. Aksiyada "Ekoloji terrora son!", "Mina terroruna son!", "Mina xəritələrini təqdim edin" kimi şüarlarla çıxış edən şura üzvləri beynəlxalq ictimaiyyətə birgə mesajlarla çıxış edirlər.






## 4. MİNADAN ZƏRƏRÇƏKƏNLƏRLƏ İŞ

ANAMA-nın Maarifləndirmə və zərərçəkənlərlə iş şöbəsindən əldə olunan statistikaya əsasən 2020-ci il noyabr - 2023-cü il yanvar tarixləri aralığında ümumilikdə 282 nəfər minadan zərərçəkib. Onlardan 127 nəfəri mülki şəxs (36 nəfər həlak olmuş, 91 nəfər yaralanmış), 155 nəfəri isə hərbi qulluqçu olub (10 nəfər həlak olmuş, 145 nəfər yaralanmış). Mütəmadi olaraq mina qurbanları ilə görüşlər keçirən Şura Üzvləri daim onları və ailələrini diqqətdə saxlayır, lazımi dəstəyin göstərilməsinə çalışırlar. Şura üzvləri İkinci Qarabağ müharibəsində sonra mina insidenti nəticəsində yaralanan vətəndaşlarımızı ziyarət edərək onların səhhəti ilə yaxından maraqlanır və ehtiyaclarını qeydə alırlar.

2022-ci il fevral ayının 1-də Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyasının (AMZA) təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Mina qurbanlarının və onların ailə üzvlərinin cəmiyyətə reinteqrasiyası" layihəsinə start verildi. AMZA-nın sədri və ANAMA yanında İctimai Şuranın üzvü Rey Kərimoğlunun rəhbərliyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun Tərtər rayonundakı Regional Peşə Təlim Mərkəzində 20 nəfər minadan, müharibədən zərərçəkənlər və onların ailə üzvlərinin iştirakı ilə 2 aylıq kompüter kursu təşkil olundu.





İctimai Şuranın üzvü, AMZA-nın sədri Rey Kərimoğlu tərəfindən 2020-ci ilin oktyabrında minaya düşən Bayramov Rəfaelin əlillik dərəcəsinin alınması üçün TƏBİB və ƏƏSM nazirliyinin nümayəndələri ilə danışıq aparıldı və ona köməklik edildi. Daha sonra AMZA nümayəndələri Ağdam və Bərdədə minadan zərərçəkənlərlə 4 geniş tərkibli görüş keçirdi. 2022-ci ilin fevral-mart aylarında 93 nəfər minadan zərərçəkənin ehtiyac meyarları öyrənildi.

Həmçinin bu il Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyasının (AMZA) təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Mina və müharibədən zərərçəkənlərin problemlərinin həllinə dəstək konfransının keçirilməsi" adlı layihəsi də uğurla icra olundu. Əsas məqsədi mina qurbanlarının Azərbaycan cəmiyyətinə olan inteqrasiyasının gücləndirilməsi, dövlət tərəfindən onlara şamil edilmiş güzəşt və imtiyazlarla bağlı həm mina qurbanlarının, həm də müvafiq dövlət strukturlarının maarifləndirməsi olan layihə çərçivəsində şura üzvləri mütəmadi olaraq görüşlər keçirdilər. Noyabrın 15-də isə BAMF-ın Tərtər regional ofisində ANAMA yanında İctimai Şura üzvlərinin, minadan və müharibədən zərərçəkənlərin və onların ailə üzvlərinin iştirakı ilə konfrans keçirildi. Tədbirdə həmçinin, Rayon İcra hakimiyyətinin başçısı Müstəqim Məmmədov və digər səlahiyyətli şəxslər iştirak ediblər.





Minalar Əleyhinə Azərbaycan Kampaniyası ictimai birliyinin Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Füzuli, Tərtər və Qazax rayonlarında yaşayan mina qurbanlarına və onların ailələrinə kiçik biznesin yaradılması" layihəsi çərçivəsində bu rayonlarda yaşayan üç mina qurbanına onların özlərinin istədikləri kiçik biznes üçün mal, material və avadanlıq alınıb verilmişdir. Hər üç şəxslə mütamadi görüşlər keçirilir və onların məşğul olduğu biznes sahəsi fəaliyyətdədir.

İctimai Şura üzvləri sədr Umud Mirzəyevin rəhbərliyi ilə mütəmadi olaraq Tərtər, Ağdam, Füzuli, Bərdə və digər rayonlarında məskunlaşan minadanzərərçəkmiş şəxsləri ziyarət edərək onların həyat hekayələrini əks etdirən maarifləndirici sənədli filmlər hazırlayırlar. Hazırlanan filmlərin əksəriyyəti ABŞ-da keçirilən konfranslarda, BMT ofislərində və digər beynəlxalq auditoriyalarda yayımlanaraq insanlar tərəfindən böyük maraq toplamaqdadır.





İctimai Şura sədri Umud Mirzəyevin dəstəyi ilə dünyanın aparıcı media qurumlarından olan Əl Cəzirə media şəbəkəsində mütəmadi olaraq Azərbaycanın mina problemi ilə bağlı xəbərlər, məqalələr yayımlanmaqdadır. Bu zaman əsas diqqət minadan zərərçəkən şəxslər və onların ailə üzvlərinin həyat hekayələrinə yönəlir. 2022-ci ildə müxtəlif vaxtlarda BAMF-ın təşəbbüsü ilə Əl Cəzirənin İctimai Azadlıqlar və İnsan Haqqları və Sənədli Film departamentlərinin əməkdaşları Tərtərdə, Ağdamda və Füzulidə minadan zərərçəkən şəxslərlə apardığı müsahibələri bir neçə dildə Əl Cəzirənin xəbər saytında, Əl Cəzirə Ərəb və İngilis kanallarında yayımladılar.






05 dekabr 2022-ci il Şura sədri Umud Mirzəyev BMT-nin Nyu York ofisində Əlillər gününə həsr olunan tədbirdə iştirak edib. U. Mirzəyev Azərbaycanın mina problemini və mina insidenti nəticəsində əlillik qazanmış şəxslərin mövcud durumundan danışıb.





**5. YEKUN HESABAT GÖRÜŞÜ**

2022-ci il dekabrın 27-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun ofisində İctimai Şura üzvləri şuranın illik hesabatının hazırlanması ilə bağlı görüş keçiriblər. Görüşdə şura sədri Umud Mirzəyev, sədrin müavini Emil Həsənov, katib Hafiz Səfixanov və üzv Rey Kərimoğlu iştirak ediblər. Görüşdə, həmçinin, gələcək fəaliyyət planı və onun istiqamətləri müzakirə olunub.



